**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ**

*Əlyazması hüququnda*

**ZƏKƏRİYYƏ MÜSLÜM OĞLU BİNGÖL**

# TÜRKİYƏNİN ARALIQ DƏNİZİ BÖLGƏSİNDƏ TURİZMİN İNKİŞAFININ TƏNZİMLƏNMƏSİ

**İxtisas: 5312.01- Sahə iqtisadiyyatı**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2017**

Dissertasiya işi Azərbaycan Turizm və Menecment Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Rəna Polad qızı Sultanova**
İqtisad elmləri doktoru, professor

**Rəsmi opponentlər:** **Fərhad Pənah oğlu Rəhmanov**
iqtisad elmləri doktoru, professor

**Flora Qəməndər qızı Ələsgərova**
iqtisad üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun "Sahibkarlığın inkişaf problemləri" şöbəsi

Müdafiə "17" iyun 2017-ci saat ___-da AMEA Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən D.01.211 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, akt zalı.

Dissertasiya işi ilə AMEA Naxçıvan Bölməsinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "__" may 2017-ci il tarixində göndərilmişdir.

**D.01.211 Dissertasiya**
**Şurasının elmi katibi:** **dosent E.A.Şıxəliyev**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqatın aktuallığı.** Turizm sektoru ölkələrdəki regional məşğulluğa, tədiyyə balansına, gəlirlərə, ixracata olan iqtisadi təsirlərlə yanaşı, təbii sərvətlərin qorunması və səmərəliliyinin artırılması kimi təsirləri də daxil olmaqla bütün bu müsbət təsirlər səbəbindən dövlətlərin maraq dairəsindədir. Ümumiyyətlə, makro səviyyədə nəzər yetirdikdə, turizmin iqtisadi nəticələri iki əsas sahədə ölkə iqtisadiyyatına təsir etməkdədir. Bunlardan birincisi, turistlərin həyata keçirdikləri istehlak xərclərinin iqtisadiyyat daxilində yaratdığı monetar təsirlərdir. Turizm xərclərinin meydana gətirdiyi digər bir təsir də iqtisadiyyatda istehsal və məşğulluq faydası gətirən real xüsusiyyətli təsirlərdir. İqtisadi inkişafın stimullaşdırıcı bir faktoru olan turizm hər şeydən əvvəl mal və xidmətlərin daxilindəki gəlir mənbəyini ifadə edir.

Türkiyənin turizm potensialının davamlılıq xüsusiyyətini də nəzərə almaqla turizmin xidmətinə cəlb edilə bilməsi ciddi, şüurlu elmi işlərin və planlaşdırmanın tətbiq edilməsini tələb edir. İctimai rifah və inkişaf baxımından olduqca əhəmiyyət daşıyan bu sektorda turizm imkanlarının şüurlu istifadəsi, turist sayının və gəlirlərin artırılması ancaq təsirli planlaşdırma ilə təmin edilə bilər. Bu istiqamətdə mərkəzi idarənin, yerli rəhbərliklərin və vətəndaş cəmiyyəti təşkilatlarının üzərinə düşən vəzifələr çərçivəsində, bərabər koordinasiya şəraitində fəaliyyət göstərməsinin əhəmiyyəti böyükdür.

Güclü turizm potensialına malik olan Türkiyənin də imkanlarının öyrənilməsi elmi və praktiki baxımdan olduqca aktualdır. Türkiyə dövləti turizm sənayesinin inkişafına və bu sahə üçün ixtisaslı kadrların hazırlanmasına böyük diqqət yetirir. Türkiyə ərazisini cənubda Aralıq dənizi, qərbdə Egey dənizi, şimalda Qara və Mərmərə dənizlərinin suları əhatə edir. Qaradəniz və Mərmərə dənizinin əksər hissəsi ərazi daxilindədir ki, kilometrlərlə məsafədə uzanan qumsal sahillər, təbiət və iqlim şəraitinin rəngarəngliyi, çoxsaylı tarixi abidələr, əfsanəvi Troyanın, habelə dünya şöhrətli Perqam, Efes, Milet şəhərlərinin xarabalıqları, Bursa və Pamukqalanın şəfalı mineral su bulaqları, ilk növbədə, əfsanələr şəhəri İstanbul, onun gözəl memarlıq abidələri, şübhəsiz, ölkədə turizmin inkişafında əhəmiyyətli rol oynayır. Türkiyədə əsas beynəlxalq turizm mərkəzləri Egey və Aralıq dənizləri sahillərində yerləşir. Onlara İzmir, Antalya, Bodrum, Mərmərə, Çeşmə və s. daxildir.

Aralıq dənizi sahillərində yerləşən Antalya kurortu bütün dünyada məşhurdur və Türkiyənin ən şöhrətli 5 ulduzlu otelləri burada cəmləşmişdir. Türkiyədə 2000-dən çox yüksək təchiz olunmuş mehmanxana mövcuddur. Bu otellərdə tətbiq olunan turizm xidmət sistemi insanların istirahət və əyləncəsində, mədəni asudə vaxtın təşkilində mühüm əhəmiyyət kəsb edir. Hal-hazırda Türkiyə turizm sənayesinin inkişaf tempi 20% olmaqla dünyada birinci yeri tutur. Qeyd etmək lazımdır ki, bu Türkiyə dövlətinin məqsədyönlü siyasətinin həyata keçirilməsi və dünya standartlarına cavab verən infrastrukturun yaradılması sayəsində baş vermişdir.

Türkiyədə turizmin təşkili və idarə edilməsi məsələlərinin həlli əslində Turizm Nazirliyi nəzdində turizm məsələləri üzrə baş idarənin üzərinə düşür və bu idarə ölkə hüdudlarından kənarda da böyük işlər görür.

Son vaxtlar qısa müddət ərzində turizm sənayesi dinamik şəkildə inkişaf edən və bir çox amillərə görə Azərbaycana yaxın olan Türkiyənin bu sektoru xüsusi maraq kəsb edir. Qeyd etmək lazımdır ki, günümüzdə Türkiyənin Aralıq dənizi bölgəsi öz turizm imkanlarına görə ölkənin ən qabaqcıl regionlarındandır. Turizmin inkişafı ilə bağlı burada mühüm nəticələr əldə edilmişdir ki, bu da müasir dövrdə elm və texnikanın sürətli inkişafı ilə qənaətbəxş hesab oluna bilər. Beləliklə, Türkiyənin Aralıq dənizi bölgəsinin imkanlarından geniş istifadə olunması bilavasitə dövlət dəstəyinə əsaslanmalıdır ki, bu da seçilmiş tədqiqatın əhəmiyyət və aktuallığını müəyyən edir.

**Tədqiqatın öyrənilmə səviyyəsi.** Turizmin inkişafının müxtəlif problemləri Türkiyə tədqiqatçılarının əsərlərində araşdırılmışdır. Lakin onun nəzəri aspektləri, turizmlə bağlı müxtəlif yanaşmalar Azərbaycan və digər ölkə alimlərinin əsərlərində tədqiq edilmişdir ki, bunlardan A.A.Nadirov, Ə.X.Nuriyev, Ə.Q.Əlirzayev, Ə.H.Əhmədov, G.Ə.Gənciyev, F.P.Rəhmanov, A.A.Rüstəmov, R.P.Sultanova və başqalarının adlarını qeyd etmək olar.

Türkiyədə isə iqtisadçı alimlərdən İ.S.Barutcugil, E.Demirtaş, İ.Dilber, F.Küçüktopuzlu, N.Kozak və digərləri öz əsərlərində turizmin inkişafı ilə bağlı ayrı-ayrı problemləri araşdırmış və tədqiq etmişlər.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Türkiyənin Aralıq Dənizi bölgəsində turizm sektorunun dövlət tənzimlənməsinin dərindən tədqiq olunması və onun inkişaf istiqamətlərinin müəy-

yən edilməsidir. Mövcud məqsədə uyğun olaraq tədqiqat işində aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- turizm kateqoriyasının mahiyyətinin müəyyən edilməsi və dövlət tənzimlənməsinin araşdırılması;
- Türkiyədə turizmin inkişafında dövlətin tətbiq etdiyi metodların və üsulların öyrənilməsi;
- ölkədə dini turizmin və onun ölkə iqtisadiyyatındakı rolunun müəyyənləşdirilməsi;
- Türkiyədə turizm potensialının imkanlarının dəyərləndirilməsi;
- Aralıq dənizi bölgəsinin iqtisadiyyatında turizmin inkişafının vəziyyətinin təhlilinin aparılması;
- tədqiq edilən bölgədə dini turizmin iqtisadiyyata təsirinin müəyyən edilməsi;
- Aralıq dənizi bölgəsində turizmin inkişafının formalaşma strategiyasının tədqiq edilməsi;
- bölgədə turizmin inkişafına investisiya qoyuluşları mexanizminin və mənbələrinin aşkar edilməsi;
- Aralıq dənizi bölgəsinin turizm baxımından inkişafında dövlət tənzimlənməsinin əsas istiqamətlərinin müəyyən edilməsi.

**Tədqiqatın obyektini** Türkyənin turizm sektoru təşkil edir.

**Tədqiqatın predmetini** Aralıq dənizi bölgəsində turizmin inkişafının dövlət tənzimlənməsi təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqat prosesində iqtisadi, statistik, monoqrafik, məqsədli proqram, sistemli yanaşma, təhlil və sintez, ümumiləşdirmə, induksiya, deduksiya və s. metodlar və üsullar tətbiq edilmişdir.

**Tədqiqatın informasiya bazası.** İşin yazılması prosesində Türkiyə Respublikasının müvafiq idarə və təşkilatlarının rəsmi statistik vəsaitlərindən, turizmlə bağlı regional və ölkə miqyaslı bülletenlərdən və internet resurslarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- turizm kateqoriyasının mahiyyəti açılmış və dövlət tənzimlənməsi məsələləri araşdırılmışdır;
- Türkiyədə turizmin inkişafında dövlətin tətbiq etdiyi metodlar və üsullar sistemli şəkildə öyrənilmişdir;
- ölkədə dini turizm və onun iqtisadiyyatdakı rolu müəyyən edilmişdir;
- Türkiyədə turizm potensialının imkanları qiymətləndirilmişdir;

- Aralıq dənizi bölgəsinin iqtisadiyyatında turizmin inkişafının vəziyyəti dərindən təhlil edilmişdir;

-bölgədə dini turizmin inkişafının iqtisadiyyata müsbət təsiri göstərilmişdir;

- tədqiq edilən bölgədə turizmin inkişafının formalaşma strategiyası hərtərəfli araşdırılmışdır;

- Aralıq dənizi bölgəsində turizmin inkişafına investisiya qoyuluşların mexanizmi və qaynaqları göstərilmişdir;

- Aralıq dənizi bölgəsində turizmin inkişafında dövlət tənzimlənmənin əsas istiqamətləri göstərilmişdir.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Dissertasiya işində irəli sürülən nəzəri-metodik müddəalar və təcrübi tövsiyələr ali məktəblərdə "Turizm işi" fənninin tədrisində, istər Azərbaycanda, istərsə də Türkiyədə turizm işi sistemində, xüsusilə, müvafiq dövlət qurumlarının və turizm şirkətlərinin işinin təkmilləşdirilməsində, bölgənin turizm sahəsinə investisiyaların cəlb edilməsində, iqtisadiyyatın digər sektorlarının öyrənilməsində, bütövlükdə, turizm sektorunda aparılan islahatlarda istifadə oluna bilər. Həmçinin dissertasiya işindən Türkiyə Respublikasının iqtisadiyyatının, tarixinin, mədəniyyətinin öyrənilməsində istifadə edilə bilər.

**Tədqiqat işinin nəticələrinin tətbiqi.** Dissertasiya işinin əsas müddəaları Osmaniyyə rayonu Mədəniyyət və Turizm şöbəsində 2014-cü ilin oktyabr ayının 24-də və Muğla rayonu Mədəniyyət və Turizm şöbəsində (arayış № 6079, 2014-cü ilin oktyabr ayının 24-də) tətbiq edilmişdir.

**Dissertasiyanın həcmi və quruluşu.** Dissertasiya işi üç fəsil, 9 paraqraf, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya giriş, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. İşin **"Giriş"** hissəsində mövzunun aktuallığı, öyrənilmə səviyyəsi, məqsədi, qoyulmuş məsələlər, elmi yeniliyi və praktiki əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın **"Turizmin inkişafının dövlət tənzimlənməsinin nəzəri-metodoloji əsasları"** adlanan birinci fəslində Türkiyə iqtisadiyyatında turizmin inkişafı və onun dövlət tənzimlənməsi sistemi, forma və metodları, dini turizmin ölkə iqtisadiyyatında rolu göstərilmişdir. Hazırda Türkiyədə turizm dövlətdən dəstək alan əhəmiyyətli bir sektordur. Xüsusilə də, 1980-ci illərin ikinci yarısından etibarən Türkiyədə bir turizm partlayışı ortaya çıxdı və qazanılan mənfəət yalnız infrastrukturun yaxşılaşdırılmasına, təbii mühitin, tarixi abidələrin qorunmasına və kapital qoyuluşların bu sahəyə artırılması ilə bağlıdır. Ümumiyyətlə, turizmin inkişafı aşağıdakı istiqamətlərdə sosial, iqtisadi və texnoloji əhəmiyyət kəsb edir:

- turizmin təşkili əsasında yeni iş yerləri açılır və müəssisələr yaranır;
- yerli əhalinin əlavə gəlir və qazanc əldə etmək imkanları meydana gəlir;
- yerli mallara daha çox istehsal tələbatı yaranır və yeni bazar açılır;
- ölkədə turizmin inkişafının yeni infrastrukturu formalaşır, həmçinin, bütün xidmət obyektləri, kommunal sahələr modernləşdirilir;
- turizmin inkişafı ilə əlaqədar olan yeni ixtisaslar və texnologiyalar meydana gəlir;
- ətraf mühitin qorunmasının əhəmiyyəti daha düzgün dərk olunur və bu istiqamətdə cəmiyyət tərəfindən əsaslı işlər görülür;
- torpağa münasibət yaxşı mənada köklü şəkildə dəyişir və ona qayğı artır.
- dövlət səviyyəsində səhiyyə xidməti də yeni keyfiyyət əsasında inkişaf etdirilir və dünya standartlarına uyğunlaşdırılır. Beləliklə də, cəmiyyətin həyatında əsaslı inkişaf baş verir.[1]

Turizmin təşkilinin kompleks şəkildə planlaşdırılması bu sahənin idarə olunmasının əsas komponentlərindən biridir. Belə ki, cazibədar

---

[1] Antalya Turizm Raporu. Antalya: Detay, 2007, s. 28.

mənzərə, zəngin memarlıq abidələri, təmiz hava, çaylar və göllər, əyləncəli yerlər və başqa diqqəti cəlb edən təbii-coğrafi mühit turizmin təşkilinin imkanlarını reallaşdırır. Belə göstəricilərə malik olan ərazilərdə turizm işinin təşkilinə daha az vəsait sərf etməklə çox qazanc əldə etmək mümkündür və turistlərin istirahəti üçün müvafiq şəraitin yaradılması əsasdır. Hər bir turist öz fərdi maraqlarından asılı olaraq gəzdiyi yerlərin tarixini, mədəniyyətini, milli xüsusiyyətlərini, adət və ənənələrini və s. yerli maraqlı cəhətləri öyrənməyə çalışır. Bu isə onun dünyagörüşünü, mənəviyyatını, estetik duyumunu zənginləşdirir. Məhz təşkilatçı turizm işini təşkil edərkən və onu planlaşdırarkən bu vacib amilləri nəzərdən qaçırmamalıdır. Belə ki, bu amillər birbaşa turistin mənəvi tələbləri ilə bağlıdır. Bütün fəaliyyətlər kimi, turizm də müəyyən etik fəaliyyət prinsiplərinə əsaslanmalıdır. BMT-nin müvafiq sənədində bu məsələ öz əksini tapmışdır.[1] Bəşəriyyətin müştərək etik dəyərlərinin dini, fəlsəfi və əxlaqi din müxtəlifliyinə hörmət və tolerant yanaşma çərçivəsində başa düşülməsi və təbliğ edilməsi məsuliyyətli turizmin həm əsası, həm də nəticəsidir. Turizmin inkişafında maraqlı tərəflər və turistlər özləri bütün xalqların, o cümlədən azlıqların, yerli xalqların ictimai və mədəni ənənələrinə və adətlərinə riayət etməlidirlər. Turizm fəaliyyəti qonaq qəbul edən region və ya ölkənin xüsusiyyət və ənənələri ilə harmoniyada, qanun, qayda və adətlərə hörmət çərçivəsində yerinə yetirilməlidir. Bir tərəfdən qonaq qəbul edən icmalar, digər tərəfdən isə yerli peşəkarlar onlara baş çəkən turistlərlə tanış olmalı, onlara hörmətlə yanaşmalı, həyat tərzini, zövqləri və arzuları haqqında öyrənməlidirlər; peşəkarların təhsil və təlimi turistlərin qonaqpərvərliklə qarşılanmasına yardım edə bilər. Turisti və qonaqların mülkiyyətini qorumaq dövlət orqanlarının vəzifəsidir.

Dünyada ən əhəmiyyətli turizm fəaliyyəti hesab edilən dəniz turizmi və digər turizm növləri baxımından Türkiyə hər nə qədər tipik bir Aralıq dənizi ölkəsi olsa da, tarix boyunca bir çox əhəmiyyətli mədəniyyətə sahib olması, indiki vaxtda bir çox xalqın keçmişinə aid izlər tapılması və təbii gözəlliklər ilə zəngin olması səbəbindən turizmdə xüsusi bir potensiala malikdir. Sahib olduğu bu əhəmiyyətli potensialın turizmdə təsirli bir şəkildə istifadə edilə bilməsi və ölkənin

---

[1] A.Aslan. Turizm planlamasına yerel yoplumun katılımı: Saklıbahçe Akyaka üzerine bir inceleme // Turizm Araştırmaları Dergisi, Anatolia, 2008, s. 71-83.

öz sərvətlərinə zərər vurmadan davamlı inkişafını təmin edən bu ölkə plan və strategiyasını inkişaf etdirir. Belə ki, 1923-1963-cü illər üzrə turizm sektorunun inkişafına dair plan və strategiya müəyyən edilmişdir. Bu baxımdan yerli və xarici sərmayəçilər üçün vergi endirimləri və 1953-cü ildə qəbul olunmuş "Turizm sənayesinin təşviq qanunu" qüvvəyə minmişdir. 1963-1983-cü illərdə müəyyən edən strategiya əsasən turizm sahəsində büdcəyə valyuta gəlirlərini artırılması, yeni iş yerlərinin yaradılması və türk vətəndaşlarının maddi rifahının yaxşılaşdırılması olmuşdur. Məhz bu qanunun realizə olunması ilə bağlı bir sıra qurumlar – Türkiyə Səyahət Agentlikləri Birliyi (TÜRSAB), Turizm Otelçiləri Federasiyası (TUROFED), Türkiyə Otelçilər Birliyi (TÜROB), Turizmi İnkişaf etdirmə və Təhsil Vəqfi (TUGEV), Turizm Sərmayəçiləri Dərnəyi (TYD) yaradıldı və fəaliyyət göstərməyə başladılar. Turizmin inkişaf etdirilməsi planlı şəkildə həyata keçirilən tədbirlərin daha çox "xüsusi sektorun təşviq edilməsi" kimi, liberal ölkə iqtisadiyyatının sahəsinə yönəldilmişdir.

Türkiyədə turizm siyasətinin inkişaf etdirilməsi daha çox Mədəniyyət və Turizm Nazirliyi tərəfindən icra edilməkdədir. Mədəniyyət və Turizm Nazirliyi bu siyasəti icra edərkən turizm təşkilatlarını 3 hissəyə ayırır: mərkəzi, kənd və xarici.

Türkiyə Turizm Strategiyasını həyata keçirərək, bütün cəmiyyətin, təşkilatların və qurumların, iş dünyasının, vətəndaş cəmiyyətinin strategiyalarını öyrənərək ortaq bir hədəf hərəkəti etmişdir. Ölkənin turizm siyasətinə təsir edən amillər aşkar edilmiş və onlar aşağıdakılardır:

-ölkənin iqtisadi sistemi;
- mövcud turizm resurslarının səviyyəsi;
-ölkənin iqtisadi və sənaye inkişafı səviyyəsi;
-ölkənin iqtisadi cəhətdən turizmdən asılılıq səviyyəsi.

Türkiyədə turizm siyasəti ilə əlaqədar hökumətin 2013-cü il üçün qəbul etdiyi Dövlət Proqramında prioritetlər və tədbirlər planı öz əksini tapmışdır.[1]

Planlaşdırma bir uzaqgörənlik olmaqla gələcəkdəki bir prosesin əvvəldən təxmin edilməsini tələb edir. Gələcəyi formalaşdırmaq üçün

[1]S.Barutcugil. Turizm işletmeciliği. İstanbul: Beta Basımevi, geliştirilmiş 3. baskı, 1988, s. 214-215; H.Olalı. Turizm politikası ve planlaması. İstanbul: İstanbul Üniversitesi İşletme fakültesi yayınları, 1990, s. 365.

planlaşdırmanın, ya da heç olmasa qısa dövrlü bir planlaşdırmanın olmaması bəzi səhvlərin ortaya çıxmasına səbəb olur. Turizm planlaşdırmasında turizmin təmin edəcəyi iqtisadi, ictimai və siyasi üstünlüklər qədər, turizmi meydana gətirən insan və investisiya hərəkətlərinin ölkənin iqtisadi və ictimai həyatına, mədəni və təbii ətraf mühitinə edəcəyi mənfi təsirlərin də həqiqi baxımdan qiymətləndirilməsi zəruriliyi vardır.

Turizm siyasətinin əsas hədəfləri; daxili və xarici turizm hərəkətlərini inkişaf etdirmək və yaymaq, xarici aktiv turizm gəlirlərini xarici passiv turizm xərclərinə nisbətlə çoxaltmaq (turizm və xarici səyahət gəlir-çıxar tarazlığı arasında leyhində saldo təmin etmək və bu saldo nisbətini artırmaq, turist sayını və bu turistlərin ortalama qalma müddətlərini artırmaq) tətilləri və buna bağlı olaraq da turizm mövsümünün yayılaraq turizmin ictimai və mədəni təsirlərindən maksimum fayda təmin etmək, ictimai turizmə və ölkə şərtlərinə uyğun xüsusi turizm növlərini inkişaf etdirmək olaraq yekunlaşdırıla bilər.

Türkiyədə aparılan turizm siyasəti ölkənin iqtisadi və ictimai həyatına öz təsirini göstərir. Məhz turizm siyasətinin müvəffəqiyyətli olması; iqtisadi, ictimai, hüquqi, əxlaqi şərtlərə, turizm sənayesi ilə cəmiyyət rəhbərliyi arasında təsirli bir dialoqa, siyasi rejim və iqtisadi sistemin fəlsəfi əsaslarına uyğun gəlməsi ilə bağlıdır.

İlk növbədə, insanları turizmə yönəldən səbəblərin ən əhəmiyyətlisi iqtisadiyyat, sağlamlıq, idman olmaqla birlikdə, bir başqa səbəb də dindir. Bir çox insan müqəddəs saydıqları məkanları ziyarət etmək üçün yer dəyişikliyi edir. Milyon illər bundan əvvəl 3000-ci illərdə Şumerlər qədim Misirə piramida və məbədləri görmək üçün səyahət etmişlər. Eynilə antik dövrdə yunanlar ilahələri Artemisin (Artemida) məbədini ziyarət məqsədilə Efesə axın etmişlər. Anadolu bir çox xalqın burada məskunlaşma xüsusiyyətini daşımaqda yanaşı, dinlər və mədəniyyətlər arasında yaranan yaxın əlaqələrə malik olan bir yerdir.

Turistlərin dini turizmə qatılma səbəbləri həcc ziyarətinin yerinə yetirilməsinin verəcəyi mənəvi rahatlıq, insanların öz dinlərinə mənsub insanlarla tanış olma və görüşmə istəyi, dini vəzifələrini yerinə yetirmək, öz dinlərinə aid əhəmiyyətli mərkəzləri görmə istəyi, günahlarından xilas olmaq və Allaha diləklərini bildirmək istəyi ilə bağlıdır. Dini vəzifələri yerinə yetirmə məqsədilə edilən həcc və missionerlik səyahətləri, dini turizmin inkişafı ilə bağlı olan yer dəyişməsidir.

Qeyd etmək lazımdır ki, dini turizm bazarın Şimalı Amerikanın əsaslandığı turizmdir. İnanc Konfrans Rəhbərliyi Birliyinə görə, 2015-ci ildə 15 mln. adam 17 dini iclasa qatılmış və bəzi beynəlxalq konfranslar bir çox ziyarətçini cəlb etməkdədir. Xristian musiqi festivalları orta hesabla illik 500 iştirakçını özünə cəlb etmişdir.

Turizmin son 60 ildə yayılması və növlərə ayrılması ilə dünyada ən sürətli inkişaf edən iqtisadi sektorlardan biridir və dövlətlərin iqtisadiyyatında yeri və əhəmiyyəti daim artmaqdadır.

Dünya Turizm Təşkilatının 2012-ci ildə nəşr etdirdiyi Dünya Turizmin ölçülməsi hesabatına görə, 1980-ci illərdə 227 milyon adam, 1995-ci ildə 528 milyon adam, 2015-ci ildə isə 983 mln. adam turizm fəaliyyəti ilə məşğul idi.[1]

Dünya Turizm Təşkilatının 2030-cu il üçün Turizm Hesabatında isə 2010-ci ildən 2030-cu ilə qədər turist hərəkətliliyinin ildə ortalama 3,3% artacağı nəzərdə tutulur. Bu vəziyyət dünyada hər il 43 milyon daha çox turist və 2030-cu ilin sonuna dünyada 1.8 milyard turistin olacağını göstərir. Bu məlumatlar turizm sektorunun böyük həcmdə olduğunun açıq göstəricisidir. İnanc turizmi rəqəmləri isə xüsusilə son illərdə böyük nisbətdə artmışdır.

Turizm Təşkilatının 2015-ci ilin məlumatlarına görə, dünyada turizm inkişafının 52%-i boş vaxt və rekreasiya məqsədli olmaqla, 279-u dini səbəblər və həcc, yoldaş, qohum ziyarəti və sağlamlıq kimi səbəblərlə reallaşmaqdadır. Qeyd etmək lazımdır ki, hər il dünyanın fərqli yerlərindəki əhəmiyyətli müqəddəs məkanları ziyarət edirlər.

Turizm Təşkilatının 2011 il üçün turizm məlumatlarına görə, dünyada turizm inkişafının 51%-i boş vaxt və rekreasiya məqsədli olmaqla, 27%-i dini səbəblər və həcc, yoldaş, qohum ziyarəti və sağlamlıq kimi səbəblərlə reallaşmaqdadır. Dünya Turizm Təşkilatına görə isə 300-330 milyon adam hər il dünyanın fərqli yerlərindəki əhəmiyyətli müqəddəs məkanları ziyarət edir.

İnanc turizmi baxımından müqəddəs məkanlara sahib olan ölkələrdə turizmin iqtisadi gəliri nəzərə alınsa, ölkələrin əhəmiyyətli iqtisadi qazanc qaynaqları əldə edə biləcəkləri bir gerçəkdir. Bu baxımdan müqəddəs Paulun vətəni olan Tarsus və Mardin şəhəri xüsusi əhəmiyyət kəsb edir. Xüsusilə xristian turistlərin Türkiyədəki müqəddəs məkanları ziyarət etməsi ilə beynəlxalq turizm hərəkəti artmışdır.

[1]Müvafiq illər üzrə statistik göstəricilərdən istifadə olunmuşdur.

Nəticədə yaranan valyuta axını ölkələrin tədiyyə balansının tarazlığına təsir edir.

Turizm Təşkilatının 2015-ci ildə olan turizm məlumatlarında dünyada turizm hərəkətlərinin 52% rekreasiya məqsədli, 29%- i isə dini səbəblər və həcc, sağlamlıq kimi səbəblərlə reallaşmışdır. Bu məlumatlara əsaslanaraq dini səbəblərlə turizm hərəkətlərində olanların payı tam olaraq təsbit edilə bilməsə də, 27%-lik nisbətdəki turistlərin əhəmiyyətli bir hissəsinin dini turizmi reallaşdırdığını görürük.[1]

Qeyd etmək lazımdır ki, turizm sektorunun inkişafı Türkiyə bölgələrinin infrastrukturun yaxşılaşdırılmasına təkan vermişdir. Ən əvvəl regionda yol, su, elektrik, kanalizasiya, avtopark və xəbər agentlikləri kimi strukturların yaradılması əsas götürülmüşdür. Beləliklə, bölgə sahib olduğu turizm potensialına görə infrastrukturu hazır olan digər sənaye bölgələri arasında qeyri-tarazlılığı azaltmışdır.

Beləliklə, Türkiyə Respublikasında turizmin inkişafı əsasən dövlət dəstəyi sayəsində yüksək səviyyəyə qaldırılmışdır ki, bu da, öz növbəsində, mütəmadi olaraq dünyada cərəyan edən proseslərlə bağlı innovasiyaların tətbiqini qaçılmaz edir.

Dissertasiyanın **"Türkiyədə turizmin inkişaf vəziyyətinin təhlili və qiymətləndirilməsi"** adlanan ikinci fəslində ölkədə turizm potensialının qiymətləndirilməsi, Türkiyənin Aralıq Dənizi bölgəsində turizmin inkişaf vəziyyətinin təhlili və bölgə iqtisadiyyatına dini turizmin inkişafının təsiri verilmişdir.Aparılan tədqiqat göstərir ki, dünyada turizm sektorundan əldə olunan gəlir 2008-ci ildə 939 mlrd. dollar, 2009-cu ildə 851 mlrd. dollar, 2010-cu ildə 919 mlrd. dolllar, 2015-ci ildə isə 1422 mlrd. dollar təşkil etmişdir. Türkiyə turizm gəlirinin dünyadakı payı 2008-ci ildə 25,4 mlrd. dollar, 2009-cu ildə 25,0 mlrd. dollar, 2010-cu ildə 24,9 mlrd. dollar, 2015-ci ildə isə 31,4 mlrd. dollar səviyyəsinə çatmışdır ki, bu da aydın şəkildə onun artmasını göstərir (bax: cədvəl 1).

Onu da qeyd etmək lazımdır ki, Türkiyə təbii gözəllikləri, sakit iqlimi,qədim tarixi, mədəniyyəti və inanc turizmi ilə də diqqət çəkməkdədir. Aralıq dənizi bölgəsində əsas olaraq sağlamlıq baxımından böyük əhəmiyyət daşıyan isti su, şəfalı sular, mağaralar və s. tanınır. Toros dağlarının varlığı da bölgəyə dağ və ov turizmi baxımından əhəmiyyət qazandırmaqdadır. Eyni zamanda son dövrdə

[1]Müvafiq illər üzrə statistik göstəricilərdən istifadə olunmuşdur.

bölgədə təşkil edilən sərgilər və festivallar turizm baxımından əhəmiyyətli bir fakt olaraq ortaya çıxmışdır.

*Cədvəl 1.*

**Türkiyə turizm gəlirinin dünyadakı payı (mlrd. dollar)**

| Turizm gəliri | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|---|
| **Dünya turizm gəliri** | 939 | 851 | 919 | 1042 | 1078 | 1159 | 1268 | 1422 |
| **Türkiyə turizm gəliri** | 25,4 | 25,0 | 24,9 | 28,1 | 29,00 | 32,3 | 34,3 | 31,4 |

**Mənbə:** cədvəl müəllif tərəfindən müvafiq illər üzrə statistik materiallar əsasında tərtib edilmişdir.

Turizm sektoruna dövlət dəstəyi əsasən qəbul olunmuş Dövlət Proqramları, qanunlar, bu sahədə aparılan dövlət siyasəti, investisiyaların yönəldilməsi ilə həyata keçirilir. Onu da vurğulamaq lazımdır ki, Türkiyə iqtisadiyyatında turizm sektoru dövlət əhəmiyyətli bir sahədir və dövlət buraya öz gücünü əsirgəmir. Məhz dövlətin bütün hədəfləri bu sahəyə yönəlmişdir.

İldə təxminən 30 dəfə çox turistə ev sahibliyi edən Türkiyə turizm sektorunun əhəmiyyətli səyahət yerlərindən biri olma xüsusiyyətini əldə etməkdədir. Türkiyədə turizm üçün çox həlledici bir dönüş dövrü olan 1980-ci illərdə turist sayı ilə hazırkı dövrdəki turist sayı arasında fərq qeydə alınmışdır. Son 30 ildə bu xidmət sektorunun əhəmiyyətli bir sahəyə çevrilməsi və Türkiyə iqtisadiyyatında olduqca böyük paya sahib olan turizm, sürətlə inkişaf etmiş və yüksək nəticələr burada əldə edilmişdir (bax: cədvəl 2). Lakin son 20 illik dövrü araşdıraraq burada turizm sektorunu Türkiyənin ümumi milli məhsulunda aşağı faizlə təmsil olunduğunu, yəni 2,1%-lə görürük.

Turizmin xüsusilə inkişaf etməkdə olan ölkə iqtisadiyyatına müsbət təsiri bu sektorun iqtisadi istiqamətini daha da önə çıxarmışdır. Ölkə iqtisadiyyatlarının qarşılaşdığı milli və beynəlxalq iqtisadi problemlərin və çətinliklərin həllində turizm, dinamik və iqtisadi xüsusiyyəti ilə sanki bir çıxış nöqtəsini meydana gətirir .

*Cədvəl 2*

**Turizm gəlirlərinin ölkə iqtisadiyyatında payı**

| İllər | Ümumi milli məhsul (mld .doll.) | Turizm gəliri (mlrd.doll). | Turizm gəlirinin ümumi milli məhsulda payı, % |
|---|---|---|---|
| **1994** | 132 | 4,3 | 3,3 |
| **1995** | 170 | 5,0 | 2,9 |
| **1996** | 184 | 5,6 | 3,0 |
| **1997** | 192 | 7,0 | 3,6 |
| **1998** | 271 | 7,2 | 2,7 |
| **1999** | 248 | 5,2 | 2,1 |
| **2000** | 265 | 7,6 | 2,9 |
| **2001** | 197 | 8,1 | 4,1 |
| **2002** | 230 | 8,5 | 5,2 |
| **2003** | 305 | 13,2 | 4,3 |
| **2004** | 390 | 15,9 | 4,1 |
| **2005** | 481 | 18,2 | 3,8 |
| **2006** | 526 | 16,9 | 3,2 |
| **2007** | 659 | 18,5 | 2,8 |
| **2008** | 742 | 21,9 | 2,9 |
| **2009** | 616 | 21,2 | 3,4 |
| **2010** | 731 | 20,8 | 2,6 |
| **2011** | 772 | 28,1 | 3,63 |
| **2012** | 786 | 29,0 | 3,68 |
| **2013** | 820 | 32,3 | 3,93 |
| **2014** | 799 | 34,3 | 4,2 |
| **2015** | 719 | 31,3 | 4,5 |

**Mənbə:** cədvəl müəllif tərəfindən müvafiq illər üzrə statistik materiallar əsasında tərtib edilmişdir.

Cədvəl 2-dən göründüyü kimi, turizmin müsbət iqtisadi təsirləri tədiyyə balansı tarazlığına, gəlirlərə, ölkənin idxalına, multiplikatora, ixracatın və gəlirin paylanmasına, məşğulluğun artımına və yeni iş yerlərinin yaranmasına, iqtisadi inkişafa və valyuta gəlirinə, kiçik müəssisələrin inkişaf etdirilməsinə, həyat standartının və keyfiyyətinin yüksəldilməsinə öz ifadəsini tapır.

Turizm gəlirlərinin Ümumi Milli Məhsul içərisindəki nisbətinə baxınca, turizmin Türkiyə iqtisadiyyatında nə dərəcədə əhəmiyyətli olduğunu görmək mümkündür. Burada xüsusilə əlavə etmək lazımdır ki, cədvəldəki məlumatlara daxili turizm xərcləmələri aid deyildir. Bunun səbəbi isə daxili turizm xərcləmələri ilə əlaqədar dövlətin rəsmi orqanları tərəfindən verilən bir statistikanın olmamasıdır. Başqa bir ifadəylə, ümumi milli məhsulun daxilində turizmin payı yalnız xarici turizm gəlirlərində, yəni xarici turistlərin etdikləri xərclərdə özünü tapır. Bu səbəbdən də xarici turizm gəlirləri ümumi milli məhsulun daxilindəki nisbətdə özünü göstərir ki, bu da Türkiyə üçün turizmin əhəmiyyətini artırır.[1]

Türk iqtisadiyyatının ümumi meyli həm xidmət, həm də sənaye sektorlarında istehsalın və tələbin genişləməsi istiqamətindədir. Bu səbəblə turizm iqtisadiyyatın ümumi meylinə uyğun olaraq inkişaf etməkdədir.

Qeyd etmək lazımdır ki, Aralıq dənizi bölgəsində yüngül sənaye, kənd təsərrüfatı emalı sənayesi ilə yanaşı, dəmir-polad və neft-kimya kimi, ağır sənaye sahələri iqtisadiyyatda əhəmiyyətli bir yer tutur. Bölgədə olan beynəlxalq limanlar və sərbəst bölgələr ticarət fəaliyyətlərinin inkişafında əhəmiyyətli paya malikdir. Həmçinin sürətlə inkişaf edən turizm bölgənin iqtisadi quruluşuna öz təsirini göstərir.

Aralıq dənizi bölgəsi dini turizm baxımından rəqabət üstünlüyünə malikdir. Müqəddəs məkanları turizm gəliri gətirən bir məkana çevirmək əsas şərtlərdən biridir. İnanc turizmi çərçivəsində bu məkanları ziyarət edən yerli və xarici turistlər bu mərkəzlərə əhəmiyyətli iqtisadi üstünlük qazandırırlar. Aralıq dənizi bölgəsində həyata keçirilən dini turizmində müqəddəs məkanların ziyarət edilməsi böyük gəlir gətirən bir turizm növüdür. Beləliklə, Aralıq dənizi bölgəsi iqtisa-

---

[1]F.Dinçer. Turizm ve turist tanımlarındaki gelişmeler. Ankara: Türkiye Kalkınma Bankası yayınları, 1993, s. 103.

diyyatının hərtərəfli inkişaf etdirilməsində turizmin və onun ayrı-ayrı növlərinin, əsasən də dini turizmin təsiri böyükdür və bu sahədə dövlət dəstəyinin gücləndirilməsi vacibdir.

Dissertasiyanın **"Türkiyənin Aralıq dənizi bölgəsində turizmin inkişafının dövlət tənzimlənməsinin əsas istiqamətləri"** adlanan üçüncü fəslində bölgədə turizmin inkişafının formalaşma strategiyası, bu sahəyə investisiyaların cəlb edilmə mexanizmi və mənbələri, Aralıq dənizi bölgəsində turizmin perspektiv inkişafına dövlət dəstəyi göstərilmişdir.

"Türkiyə Turizm Strategiyası–2023" turizm sektorunda cəmiyyət və xüsusi sektorun əməkdaşlığı gündəmə daşıyan və strateji planlama işlərinin rəhbərlik və tətbiqinə istiqamətli açılamlar təmin etməsini hədəfləyən bir işdir. Planda 9 mədəniyyət və turizm inkişaf bölgəsi, 7 turizm inkişaf koridoru, 10 turizm şəhəri, 52 lliman, 10 aeroport, yeni dəmir yolu və avtomobil yollarının inkişaf etdirilməsi planlaşdırılmışdır.




**Şəkil 1. Türkiyənin Turizm Nazirliyi tərəfindən 2016-cı ildə turizm üzrə təsdiq edilmiş təsislər.**

Şəkil 1-də göründüyü kimi, Türkiyə Turizm Nazirliyi tərəfindən 2016-cı ildə təsdiq edilmiş təsislər aşağıdakılar üzrə olmuşdur:

Antalyaya 25%, Muğlaya isə isə-14% pay düşür. Bu nəticəyə görə dövlət dəstəyi ilə (Turizm Nazirliyi) Aralıq dənizi bölgəsinin gələcək inkişafı müəyyən edilir.

“Türkiyə Turizm Strategiyası – 2023”-ə görə, Türkiyənin turizm sektoru Aralıq dənizi bölgəsinin dördüncü böyük səyahət yeri kimi qəbul edilmiş, bu bölgənin səviyyəsinin yüksəldilməsi, infrastrukturunun, təsis və xidmətlərinin artırılması, bütövlükdə ölkə əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılmasına səbəb olacaq.

İndiki dövrdə Türkiyənin Aralıq dənizi bölgəsi əhəmiyyətli bir cazibədarlıq vəziyyətinə çatmış bir diyardır. Bunun ən əsas səbəbi coğrafi, təbii iqlim şəraiti, tarixi, mədəni varlıqların mövcudluğudur. Bununla birlikdə, Türkiyənin sahib olduğu bu xüsusiyyətlər turizm gəliri təmin etmək baxımından əhəmiyyət ifadə etməkdə və ölkə içindəki başda Aralıq dənizi bölgəsi olmaq üzrə bütün bölgələr üzərində əhəmiyyətli bir gəlir qaynağı olaraq görülməkdədir. Bu səbəbdən də turistik cazibədarlıq qüvvəsinə baxmayaraq, sərmayəçilər tərəfindən müxtəlif səbəblərlə yayılanlar da çox olur. Belə ki, dövlət öz dəstəyini göstərərək, buraya investisiya qoyuluşlarının həyata keçirilməsi istiqamətində gücünü əsirgəmir.

Ölkədə turizm sahəsində çatışmazlıqları müəyyən etmək və aradan qaldırmaq istiqamətində bir çox müsbət tədbirlər həyata keçirilmişdir. Bu mənada Aralıq dənizi bölgəsinin mövcud turizm potensialının araşdırılması, nöqsanları müəyyən etmək və qlobal rəqabət mühitində rəqabət üstünlüyü təmin etmək məqsədilə gələcəyə istiqamətli strategiyaların tərtib olunması əsas götürülməlidir.

Turizmin inkişafının təmin ediməsində dövlət dəstəyinin əhəmiyyətli bir rolu vardır. Tarixi abidələrinin qorunması, qazıntı işlərinin aparılması, turizm potensialının və gəlirlərini artırılması, dövlətin turizm sahəsində həyata keçirdiyi siyasətin və tədbirlərin üst-üstə düşməsi labüddür.

İndiki vaxtda da turizm sektorunda sərmayə qoymaq istəyən biznes, firma və yaxud fiziki şəxslər üçün istiqamətli təşviqlər var. Belə ki, təşviq tədbirləri 2634 saylı qanunun 13-cü maddəsində ifadə edilmişdir. Beləliklə, Türkiyədə turizmin inkişafı istiqamətində dövlət dəstəyi çox güclü və bütün imkanlar bu sahənin inkişafına yönəldiulmişdir. Lakin bütün bunlara baxmayaraq, yenə də çatışmazlıqlar mövcuddur və onların aradan qaldırılması vacibdir ki, bu da innovasiyaların tətbiqi ilə bağlıdır.

Bundan başqa, turizm sektorunun gücləndirilməsi istiqamətində lazım olan planlama strategiyaları arasında otel mərkəzli turizm inkişafından daha çox tarix, mədəniyyət, sənət kimi dəyərlərə, mərkəzli turizm inkişafına, dəyərləri yaşadan, qoruyan, çıxaran və məşğulluğa da müsbət təsir edən bir "sahə rəhbərliyi" modelini inkişaf etdirmək əsasdır.

Dissertasiyanın sonunda aşağıdakı **nəticə və təkliflər** verilmişdir:

Tarix, mədəniyyət və fövqəladə təbii gözəlliklərin iç-içə yaşandığı Türkiyə, bu xüsusiyyətlərini günümüzə qədər davam etdirə bilmiş dünyanın nadir turizm cənnətlərindən biridir. Dörd mövsümün bütün xüsusiyyətlərinin hər vaxt yaşana bildiyi bölgələri, yaşıl meşələri, xizək idmanına əlverişli qarlı dağları, təmiz dənizləri, qumluqları, qonaqpərvər insanları və dünyanın üç məşhur mətbəxindən birinə sahib olması baxımından da imtiyazlı bir ölkədir. Ölkənin xüsusilə Egey və Aralıq dənizi bölgələrində, yaz turizmi olduqca irəli səviyyədədir. Qaradəniz sahillərində məhdud ölçüdə yaz turizmi, yüksək yerlərdə isə yayla turizmi inkişaf etmişdir. Bu bölgələrdə kafi infrastruktur xidmətləri ilə birlikdə müasir turizm sahələri yaradılmışdır. Yaz turizminin ən sıx olduğu tətil regionları arasında Antalya, Marmaris, Kuşadası, Bodrum, Fəthiyyə və Qaş kimi mərkəzlər var. Ölkənin yüksək yerlərində isə yayla turizmi hər keçən gün əhəmiyyətini artırmaqdadır. Yayla turizminin ən çox inkişaf etdiyi bölgələr arasında Trabzon, Giresun, Rize, İlgaz, Bolu və Abant iştirak edir.

Ölkənin ən çox turist qəbul edən şəhəri Antalyadır. Antalya qapısından ölkəyə gələn turistlərin sayı 2001-ci ildə 4 milyon 200 mini aşmışdır. Ölkənin ən çox turist qəbul edən ikinci şəhəri isə İstanbuldur. Bu şəhərləri Muğla, Ədirnə, İzmir, Aydın və Ankara izləyir.

Əhəmiyyətli bir qurşaq üzərində yerləşən Türkiyə, rekreasiya zənginliyi və potensialı baxımından dünyada ilk yeddi ölkə arasında iştirak edir. Ölkədə temperaturu 20ºC-110ºC arasında dəyişən mindən çox termal su mənbələri vardır. Bu mənbələrdən iki yüzündən çoxunun üzərində termal mərkəz yaradılmışdır. Türkiyənin Marmara və Egey bölgələrində yerləşən bu termal mərkəzlərə İstanbul, İzmir, Pamukkale, Marmaris və Fəthiyyə sahəsi kimi məşhur turistik bölgələrdən asanlıqla getmək mümkündür. Qədim Hieropolis şəhəri, dağdan axan qaynaq suyunun yamacları göz qamaşdıran ağ kalkerli daşlardan yumşaq laylarla bəzəndirərək böyük dairəvi hovuzlar oyduğu Pamukkalenin zəngin mədən suları məkanı üzərində tikilmişdir.

**Türk turizmində yeni anlayış.** Türkiyənin dünya iqtisadiyyatıyla inteqrasiya olunma yolunda son illərdə ən müvəffəqiyyətli olduğu sektor turizmdir. Bu müvəffəqiyyəti diqqətə alan Türkiyə sahib olduğu bu potensialı yaxşı qiymətləndirərək beynəlxalq turizm gəlirindən daha çox pay alma yolunda turizm siyasətlərini yeni bir anlayışla nəzərdən keçirir. Mədəniyyət və Turizm Nazirliyi, turizm sənayesinə təsir edən bütün faktorları diqqətə alaraq yeni satışa çıxarma strategiyalarını müəyyən etmişdir. Misal üçün, Türkiyə ciddi tədbirlər görmüş və təqdimat kampaniyalarını fərqli coğrafiyalardakı 40 ölkədə 23 xarici büro vasitəçiliyi ilə sıx olaraq yaymağa başlamışdır.

Belə ki, dörd mövsümün bir yerdə yaşandığı Türkiyə dünyanın nadir turizm cənnətlərindən biridir. Türkiyə təbii gözəllikləri, tarixi əsərləri, tapılmayan sənət strukturları ilə turizmin inkişafı üçün bir çox ölkədən daha böyük imkanlara malikdir. Türkiyənin uzunluğu 8000 km-i aşan sahilləri boyunca, bəzən meşələrin dəniz kənarlarına qədər endiyi çox gözəl çimərliklər bir-birini əvəz edir. Egey və Aralıq dənizi sahillərində yaz uzun və günəşlidir, illik ortalama günəş vannası qəbul etmə müddəti bir çox ölkələrdən daha uzundur. Buralarda dəniz suyunun istiliyi 6-8 ay müddətində 20 dərəcə ətrafındadır. Bu sahillər xüsusilə Avropanın soyuq, sisli və yağışlı yerlərində yaşayanlar üçün ideal bir tətil yeri sanki bir cənnətdir. Ürgüp-Göreme-Nevşehir bölgəsinin bənzəri olmayan pəri bacaları, qaya içinə oyulmuş köhnə kilsələri, yeraltı şəhərləri turistlərin böyük marağına səbəb olur. Öz gözəlliyi ilə insanı heyran edən Pamukkale, Adıyamanın şimal-şərqindəki Nemrut dağı, gölləri, yaylaları, meşələri Türkiyənin turizm potensialını artırır. Eyni zamanda Türkiyə tarixdə bir çox sivilizasiyaların qurulduğu bir ölkədir. Bu səbəbdən ölkə tarixi şəhər qalıqları, müxtəlif sivilizasiyalara aid sənət strukturları, çox qiymətli əsərlərin sərgiləndiyi muzeyləri, rəngli folkloru və məşhur yeməkləri ilə bütün dünyada tanınmışdır.

Birbaşa Türkiyənin Aralıq dənizi bölgəsində turizmin inkişafının dövlət tənzimlənməsi ilə bağlı nəticələr isə aşağıdakılardır:

- Gündən-günə sürətlə inkişaf edən turizm sənayesi yüksək ixtisaslı kadrların və ciddi peşə hazırlığının olmasını tələb edir. Bu turizmin müasir inkişaf mərhələsi üçün daha xarakterikdir. Turizm nəinki səyahətlərin praktiki reallaşdırılması sahəsidir, o həmçinin xüsusi biliklər sahəsinə, yəni nəzəri fəaliyyət sahəsinə çevrilməkdədir;
- Turizm istiqamətli ölkə kimi Türkiyənin daxili və beynəlxalq turizm bazarlarında təbliği mexanizmi kimi dövlətin həyata keçirdiyi və

həm istehlakçıya, həm də turizm sənayesinə yönəlmiş aşağıdakı tədbirlər ola bilər:

• İri beynəlxalq turizm və digər sərgilərdə vahid milli Türkiyə stendi ilə iştirak və burada Aralıq dənizi bölgəsinin xüsusi ilə reklam edilməsi;

• Türkiyə Respublikasında keçirilən turizm sərgilərini dünyanın iri turizm sərgilərindən birinə çevirmək üçün yardım etmək və belə sərgiləri Aralıq dənizi bölgəsi turizm mərkəzlərində təşkil etmək;

• Gəlmə və daxili turist axınını artırmaq və Türkiyə Respublikasının turizmə yararlı imicini yaratmaq üçün beynəlxalq və daxili bazarlarda milli turizm məhsulunun təbliği;

• Qeyri-kommersiya xarakterli reklam-informasiya, çap və digər məhsulların hazırlanması və onun iri beynəlxalq turizm sərgilərində, həmçinin Türkiyə Respublikasının xarici ölkələrdəki nümayəndəliklər, o cümlədən turizmi idarə edən orqan tərəfindən yaradılacaq xarici nümayəndəliklər vasitəsi ilə yayılması;

• Qlobal internet şəbəkəsində Türkiyə Respublikasının Aralıq dənizi bölgəsinin cəlbedici turizm istiqaməti haqqında informasiyanın yayılması;

• Digər işlərin yerinə yetirilməsi, məsələn: bölgədə keçirilən festival və digər hadisələrlə bağlı tədbirlərin informasiya dəstəyi, Türkiyənin yeni turizm istiqamətlərinin xarici ölkələrdə təqdimatının təşkili, xarici və yerli KİV-lər üçün infoturların təşkili, ikitərəfli və çoxtərəfli beynəlxalq əməkdaşlığa əsaslanan beynəlxalq konfrans, simpozium, konqres və digər bu kimi tədbirlərin keçirilməsi, həmçinin iri hökumətlərarası təşkilatlarla əməkdaşlıq etmək;

- Dövlət reklam-informasiya strategiyasının həyata keçirilməsi təcrübəsi göstərir ki, turizm məhsulu mütləq diversifikasiya olunmalıdır: Yəni ənənəvi turizm təklifi ilə yanaşı yeni turizm məhsullarının nümayişi təşkil edilməli, milli adət-ənənələr, istehsal və sənətkarlıq, yeni muzey və ekspozisiyalar, hadisələrlə bağlı tədbirlər və turizm xidmətləri haqqında daha geniş informasiya yayılmalıdır;

- Türkiyənin dini turizmi baxımından müxtəlif sivilizasiyalara ev sahibliyi etməsi, müxtəlif dinləri və mənşələri dini turizmi damı altında birləşdirməsi baxımından əhəmiyyətlidir. Beynəlxalq əhəmiyyətli dini turizmi mərkəzlərinin bir çoxu Anadolu torpaqlarında var. Xüsusilə Aralıq dənizi çanağı, dini turizmi mərkəzi olub, xristianlığın əhəmiyyətli həcc mərkəzlərindəndir. Müqəddəs Paul Kilsəsi, Müqəddəs Paul

Quyusu və ətrafı, Əshab-i Kəhf mağarası, Perge, Demre, Pisidia Antiokheia kimi bir çox dini mərkəzi Aralıq dənizi bölgəsində yerləşməkdədir. Gərək turizm, gərək iqtisadi baxımdan araşdırıldığında, ilin hər dövründə edilə bilən bir turizm növü olan dini turizminin, təsir edici bir şəkildə ediləbilən milli və beynəlxalq təqdimatları sayəsində, bölgə mədəniyyətinin və dini turizm ilə birləşdirilməsi təmin edilməkdədir. Lakin edilən milli və beynəlxalq təqdimatlar kafi deyil. Ediləcək olan təqdimat fəaliyyətləri ilə dini turizminə olan tələb artırılaraq, ilin hər dövründə bölgə iqtisadiyyatına dəstək təmin edilə bilər. Bu da bölgəyə dini turizm baxımından daha çox turistin gəlməsinə vəsilə olacaq və turizm gəlirlərin artmasını təmin edəcək.

Bütün bunlar isə gəlmə və daxili turizmin inkişafına yardım məqsədilə ölkənin müsbət imicinin formalaşmasına istiqamətlənmiş uzunmüddətli informasiya kampaniyasının hazırlanmasını tələb edir. Türkiyə Respublikasının malik olduğu potensial imkanlar bugünkü gündə turizmin bir çox növlərinin inkişaf etdirilməsi üçün şərait yaradır. Fikrimcə, Türkiyə Respublikasının tamamında və Aralıq dənizi bölgəsində də həmçinin yaxın gələcəkdə turizmin bir çox növlə-rinin təşkili perspektivi gerçəkləşə bilər.

Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər müəllifin dərc olunmuş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:

1. The development of tourism in the Meditterranean region of Turkey and the role of government regulations in this development / Проблемы и перспективы развития сотрудничества между странами Юго-восточной Европы в рамках Черноморского экономического сотрудничества. Albena, Свитош, 2012, p.169-179.

2. Türkiye'deki inanç turizmi ve ülke ekonomisindeki rolü // Journal of Qafqaz University. Economics and Administration Bakı, 2013, №1, p.29-36.

3. Türkiyədə turizmin inkişaf vəziyyətinin analizi və qiymətləndirilməsi // AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası, 2013, №3, s. 219-221.

4. Анализ экономики развития туризма в Средиземноморье // Российское препринимательство, Москва, 2013, №12 (234), стр.115-121.

5. Government support for the development of tourism in the Mediterranean Region // Journal of Education and Sociology,

Baku, 2013, Vol:4, №2, p. 22-26.
6. The ways and the methods of government in tourism development in Turkey // International Journal of Academıc Research, 2013, Vol:5, №2, p.490-495.
7. The investment resources and the mechanism of developing tourism in Mediterranean region // Energy Education Science and Technology, 2013, Vol: 5(3), p.179-184.
8. The formation strategy of tourism development in Mediterranean Region // International Journal of Academic Research, 2013, Vol:5, №3, p.149-151.
9. Türkiye turizminin kamu yönetiminde kurumsal gelişimi // Uluslararası Türkbilim Dergisi, İzmir, 2013, Sayı:11, s. 87-96.
10. Türkiye ekonomisinde turizmin gelişimi ve devlet yönetimi sistemi // Uluslararası Türkbilim Dergisi, İzmir, 2014, №14, s. 179-184.

**Зекерия Муслим оглы Бингель**

## Государственное регулирование развития туризма в Средиземноморском регионе Турции


### Резюме

Работа состоит из введения, трех глав, выводов и списка использованной литературы.

Во введении обоснована актуальность темы, указана степень ее изученности, сформулированы цель и задачи методологическая и информационная базы, объект и предмет исследования, указана научная новизна и практическая ценность.

В первой главе диссертации изучается теоретические и методологические основы для развития туризма и проблемы регулирование. Развитие туризма в экономике Турции исследуется с точки зрения системы государственного регулирования. Изучаются формы и методы государственного регулирования развития туризма. Среди вопросов, указанных в главе диссертации особое место дается религиозному туризму и ее соответствующей роли в развитии экономики страны. Следует отметить, в этой связи, Турции имеет большой потенциал.

Во второй главе диссертации ведется анализ и оценка развития туризма в Турции. Проводится оценка туристического потенциала страны. Затем изучается состояние развития туризма в Средиземноморском регионе.

Глава III диссертации изучает основные направления развития туризма в Средиземноморском регионе. Анализируется формирования стратегии развития туризма в этой области. Механизмы в развитии туризма, привлечение инвестиций и источников исследуются также в этой главе. Вопрос о государственной поддержке для дальнейшего развития туризма в Средиземноморском регионе в категории вопросов исследования.

В заключительной части работы даны выводы и рекомендации, сформированные в результате проведенного исследования.

**Zekeriya Muslim oglu Bingol**

## State regulation of tourism development in the Mediterranean region of Turkey

### Summary

The work consists of introduction, three chapters, conclusion and recommendations and the list of the used literature.

In introduction the actuality of the theme is proved, the degree of its level of scrutiny is specified, the purpose, scientific novelty and practical value of the problem is formulated, methodological and information bases, the object of research is determined.

In the first chapter of the thesis we study the theoretical and methodological framework for the development of tourism and the problems of regulation. The development of tourism in the economy of Turkey is investigated from the standpoint of the system of state regulation. We study the forms and methods of state regulation of tourism development. Among the issues mentioned in the chapter of the thesis is given a special place of religious tourism and its appropriate role in the economic development of the country. It should be noted, in this regard, Turkey has great potential.

In the second chapter of the dissertation is conducted the analysis and evaluation of the development of tourism in Turkey. Assesses the country's tourism potential. Then we study the state of development of tourism in the Mediterranean region.

Chapter III of the dissertation examines the main directions of development of tourism in the Mediterranean region. We analyze the formation of the tourism development strategy in this area. Mechanisms in the development of tourism, attracting investments and sources are investigated in this chapter. The question of state support for the further development of tourism in the Mediterranean region in the category of research questions.

In the final part of the paper gives conclusions and recommendations that emerged from the study.

Çapa imzalanmışdır: 11.05.2017
Kağız formatı 60x84, 1/16
Fiziki çap vərəqi 1,4
Sifariş: 103
Tiraj 100

***AMEA Naxçıvan Bölməsinin “Tusi” nəşriyyatında çap edilmişdir.***

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**НАХЧЫВАНСКОЕ ОТДЕЛЕНИЕ**

***На правах рукописи***

**ЗЕКЕРИЯ МУСЛИМ оглы БИНГЕЛЬ**

# ГОСУДАРСТВЕННОЕ РЕГУЛИРОВАНИЕ РАЗВИТИЯ ТУРИЗМА В СРЕДИЗЕМНОМОРСКОМ РЕГИОНЕ ТУРЦИИ

**Специальность: 5312.01 – Отраслевая экономика**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени доктора философии по экономике**

**НАХЧЫВАН – 2017**